# Qarabağ savaşı və Azərbaycan Ordusunun tarixi qələbəsi Türkiyə mətbuatında

## (I yazı)

### Vətən müharibəsi: Türkiyə mətbuatının baş mövzusu

Nəhayət ki, 27 sentyabr 2020-ci il səhər saatlarında Ermənistan Silahlı Qüvvələrinin genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrini iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutmasının qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan Müdafiə Nazirliyi cəbhədə əks-hücum əməliyyatına başladığını açıqladı. Azərbaycan Ordusunun komandanlığı tərəfindən qoşunların bütün cəbhə boyu əks-hücum əməliyyatına başlaması qərarı Türkiyə mətbuatında müzakirə mövzusu yox, gözlənilən xəbər kimi dəyərləndirildi.

"Vatan" qəzeti 28 sentyabr sayında yazırdı: "Qarşıdurmalar dünən səhər Ermənistan silahlı qüvvələrinin Ermənistan–Azərbaycan cəbhə xəttindəki Azərbaycanın mülki yaşayış məntəqələrini atəşə tutmasından sonra başladı. Azərbaycan Ordusu əks-hücuma keçərək bəzi yaşayış məntəqələrini işğaldan azad etdi".

Yeni Qarabağ müharibəsi dünya mətbuatının xəbərləri sırasında yenidən yer alsa da, tək Azərbaycan mətbuatının yox, Türkiyə mətbuatının da önəmli və baş mövzusu oldu. Bölgədə genişmiqyaslı erməni təxribatlarına cavab olaraq Azərbaycanın başlatdığı əks-hücum əməliyyatına Türkiyə mətbuatında geniş yer verildi, bir az da dəqiq desək, bu mövzu manşet xəbərləri sırasında yer alması ilə diqqət mərkəzində oldu.


DIŞ HABERLER 5
Çocuk-kadın, küçük-büyük demeden hunharca katliam yaptılar
Karabağ'da Ermeni vahşeti
KKTC, ekonomik darboğazdan kurtuluyor

Bunlar, bir ilk olaraq, Azərbaycanın Türkiyədəki o vaxtkı səfiri Xəzər İbrahimin ölkənin aparıcı kütləvi informasiya vasitələrində yer alan açıqlamalarında geniş əksini tapdı. "A Haber", "TRT avaz", "Haber Global" telekanalları, "Anadolu", DHA xəbər agentlikləri, "Milliyyət", "Hürriyət" qəzetləri və digər mətbu orqanlar diplomatik nümayəndəliyimizin rəhbərinin münaqişə ilə bağlı fikirlərinə geniş yer verdilər. Türkiyə sözdə və işdə Azərbaycana tərəfdaş olmasını vurğulayan "Hürriyət" yazarı Rauf Tamer bildirirdi: "Ermənistanda yaşayan erməni xalqı ilə problemimiz yoxdur. İllərdir dünyaya sırınan bir soyqırım yalanı ilə mübarizə aparırıq" kimi yanaşmalar da məsələnin gündəmdə dayanmasını sübutlayırdı.

"Star" qəzeti isə yazırdı: "Türkiyə Böyük Millət Məclisində təmsil olunan 4 siyasi partiya–hakim Ədalət və İnkişaf Partiyası, Cümhuriyyət Xalq Partiyası, Milliyyətçi Hərəkat Partiyası və İyi Partiyası Ermənistanın Azərbaycana qarşı hərbi hücumlarını qınayan birgə açıqlama verib: "Türkiyə Böyük Millət Məclisində təmsil olunan siyasi partiyalar olaraq Ermənistanın Azərbaycana qarşı hərbi hücumları ilə bağlı, Türkiyə Böyük Millət Məclisində təmsil olunan siyasi partiyalar olaraq, Ermənistan silahlı qüvvələrinin 27 sentyabr 2020-ci il tarixində Dağlıq Qarabağda atəşkəsi və beynəlxalq hüquqü pozaraq ağır silahlarla Azərbaycanın mülki yaşayış məntəqələrini və hərbçiləri hədəf alan hücumlarını ən sərt şəkildə qınayırıq".



***Vətən müharibəsi Azərbaycan üçün böyük və tarixi bir qələbə sayıldığı kimi, savaş zamanı mətbuatın da önəmli mövqeyini gündəmə gətirdi. Bu baxımdan dünya media şəbəkəsində seçilən mövqeyi və beynəlxalq KİV-in ciddi bir parçası olan Türkiyə mətbuatının Azərbaycanın haqq davasına davamlı informasiya dəstəyinin üzərində dayanmağı vacib hesab etdik.***

***Türkiyə Azərbaycana dəstəyi ilə təkcə bir əsr öncəki tarixi xilaskarlıq missiyasını təkrar etmədi, eyni zamanda, terrora qarşı mübarizədə rolu, Yaxın və Otra Şərqdə möhkəmlənən mövqeyi ilə Qafqazda da özünü təsdiq etdi və dünya çapında yeni güc olduğunu ortaya qoydu. Hər halda, İkinci Qarabağ savaşının nəticələri də bunu təsdiq edir və möhtəşəm Bakı paradının təntənəsi də bu faktın nəticəsidir. Əslində, deyilənlərin təzahürünü təkcə dünya siyasi dairələrinin mövqeyində yox, həm də dövri mətbuatda açıq və aydın şəkildə görməkdəyik. Bu baxımdan savaş tarixinin mənzərəsini və fəlsəfəsini Türkiyə mətbuatı üzərindən dəyərləndirməyi vacib hesab etdik.***

Sənəddə bildirilirdi: "Bu son hücumlar Tovuzda törədilən hücumlardan sonra Ermənistanın bölgədə sülhə və sabitliyə ən böyük əngəl olduğunu ortaya qoyub. Biz beynəlxalq hüquqdan qaynaqlanan özünümüdafiə haqqı çərçivəsində öz xalqını qorumaq və ərazi bütövlüyünü təmin etmək məqsədilə Azərbaycanın həyata keçirdiyi müdafiə tədbirlərini dəstəkləyirik".

"Habar Türk"ə açıqlamasında Ədalət və İnkişaf Partiyasının sözçüsü Ömər Çelik Qarabağ bölgəsinin Azərbaycan torpağı olduğunu, Ermənistanın orada işğalçı olduğunu bildirirdi: "Azərbaycan xalqına başsağlığı və dəstək verməklə yerinə, Azərbaycan dövlətinə "qanuni müdafiə haqqından istifadə etmə" demək, Ermənistana dəstək vermək deməkdir. Zalımla məzlumu eyni tutmaq ədalətli deyil". Ömər Çelik bildirib ki, "Türkiyə Azərbaycanı ərazi bütövlüyü uğrunda mübarizəsində haqlı sayır və qardaş ölkənin yanındadır. Azərbaycan ərazisini müdafiə etmək haqqına malikdir. Qarabağ bölgəsi Azərbaycan torpağıdır. Ermənistan orada işğalçıdır. Ermənistanın mülki obyektlərə hücum etməsi beynəlxalq hüququn açıq-aşkar pozulmasıdır. Beynəlxalq ictimaiyyət Ermənistanı qınamalıdır".

Uzun illərdir ki, "Hürriyət" qəzetində köşə yazıları ilə çıxış edən tarixçi alim İlber Ortaylı "Azərbaycanın Qarabağı" məqaləsində yazırdı: "Ayın 27-də erməni qoşunları Qarabağdakı Azərbaycan türk kəndlərinə hücum etdi və qırğın törədildi. Bundan sonra Azərbaycan Ordusu cavab verdi. Türkiyə Azərbaycanın müdafiəsinə diplomatik, siyasi və maliyyə cəhətdən dəstək verir. Amma rəsmi olaraq Türkiyə Silahlı Qüvvələri orada deyil. Digər tərəfdən, Rusiyanın və bəzi Avropa dövlətlərinin Ermənistanı dəstəklədiyi aydındır. Bu qarşılıqlı mübarizədə Avropa İttifaqı və Rusiyanın rolunun nə olduğunu zaman göstərəcək".

"Sabah" qəzeti 28 sentyabr sayının manşet xəbərində bildirirdi ki, Şimali Kıbrıs Türk Cümhuriyyətinin Prezidenti Mustafa Akıncı Ermənistanın Azərbaycan ərazilərinə hücumlarını qınadı. Prezident Akıncı açıqlamasında Ermənistan və Azərbaycan arasında on illərdir həll olunmayan Qarabağ münaqişəsinin bir daha qarşıdurmaya çevrildiyini qeyd etdi. Akıncı "Həmrəylik hisslərimizi dost və qardaş Azərbaycan xalqına Kıbrıs Türk xalqı adından çatdırırdım".

Anadolu və DHA agentlikləri, TRT Haber, Haber Türk, TGRT, A Haber, Haber Global, TRT Avaz, NTV telekanalları, habelə "Yeni şəfəq", "Hürriyət", "Sözçü", "Aydınlıq", "Yeni çağ" və s. nüfuzlu qəzetlər, kütləvi informasiya vasitələri yeni Qarabağ müharibəsini Azərbaycanın 30 illik işğal altında olan torpaqlarının, nəhayət ki, işğaldan azad olunması və azadlıq mücadiləsi kimi dəyərləndirirdi. Türkiyə mediası cəbhə xəttində baş verən savaşı yaxından izləyir, olduqca operativ mövqeyini ortaya qoymaqla həm də hadisələrin gedişinə biganə qalmadığını sərgiləməkdə idi. Demək olar ki, hər gün Türkiyə KİV-ləri təmas xəttindən ən son hadisələr haqqında məlumatlar yayır, eyni zamanda, ədalətli mövqeyini ortaya qoymaqla Azərbaycana dəstək olduğunu da sübut edirdi.

Bütün Türkiyə mediasında "Azərbaycan vura-vura irəliləyir" şüarı ilə təqdim edilən xəbərlərin nəinki günbəgün, hətta saatbasaat dəyişdiyini müşahidə etməkdəyik. "Haber7.com" saytının yaydığı xəbərlərin xülasəsi də bunları bir daha təsdiq edir: "Ermənistanın 27 sentyabr bazar günü səhər başladığı hücumlardan sonra Azərbaycan Ordusunun əks əməliyyatları davam edir. Son dəqiqələrdə verilən məlumata görə, Ermənistanın ölü və yaralıların təxliyəsində çətinliklər yaşadığı qeyd edilib. Ermənistan ordusunun komandanlığının hər kəsi ölü və yaralıların təxliyəsində kömək etməyə çağırdığı da bildirildi. Erməni zabitlərin toplandığı bir bunker də vuruldu ". Sentyabrın 30-da yayılan bu xəbərlərdə deyilirdi: "Azərbaycan artilleriya bölmələrinin açdığı atəş nəticəsində Ermənistan ordusu ağır itki verib".

Azərbaycan Ordusunun uğurlarını açıqlayan xəbər portalı düşmən tərəfin itkilərini dəqiqliklə göstərməklə hadisələrə nə qədər diqqətlə yanaşıldığını açıqlayırdı. "Ermənistan ordusunun 2 alayı məhv edildi, ağır itkilər veren erməni güclərin ölü və yaralıların təxliyəsi üçün nəqliyyat vasitələri tapa bilmədikləri" və ya başqa bir xəbərdə "erməni ordusunun Azərbaycan topçu birlikləri tərəfindən açılan atəşlə ağır itkilərlə üzləşdiyi" bildirilirdi.

Bu xəbərlər silsiləsində digər diqqətçəkən bir məqam da Azərbaycanda ön cəbhənin uğurlarından fərəhlənən, arxa cəbhədəki coşğunluq və döyüşə getmək istəyənlərin əhval-ruhiyyəsi də təqdimatda unudulmurdu: "Azərbaycan Prezidenti İlham Əliyev ölkədə qismən səfərbərlik elan edilməsi haqqında qərar imzaladıqdan sonra ölkə gəncləri cəbhəyə getmək üçün hərəkətə keçdi. Ərizələrini dolduraraq kütləvi şəkildə cəbhəyə gedən gənclərin böyük xoşbəxtlik yaşadıqları görünür. Ölkənin hər yerindən toplanan azərbaycanlı gənclər işğal altındakı torpaqları geri almaq üçün canlarını qurban verməyə hazır olduqlarını ifadə edirlər".

Müharibənin başlanmasından bir gün sonra "Yeniavaz.com" yaydığı "Qarabağ döyüşü Türkiyə mətbuatında – "Azərbaycan vura-vura irələləyir" xülasəsində xəbər verirdi ki, Türkiyə mətbuatında Azərbaycan Ordusunun Dağlıq Qarabağda apardığı uğurlu döyüşlər barədə geniş yazılar yayımlanırdı. Yazıda Azərbaycan Ordusunun Füzuli-Cəbrayıl, Ağdərə-Tərtər istiqamətində ermənilərin çox sayda canlı qüvvəsinin və döyüş texnikalarını məhv etdiyi vurğulanırdı. Məlumat üçün deyək ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan son çıxışında "Dağlıq Qarabağın ermənilərdən azad edilməsinin vaxtı gəlib çatıb"-deyə bildirmişdi. Həmçinin, Türkiyənin siyasi partiyaları Azərbaycana qarşı edilən düşmən təxribatı haqqında birgə bəyanat yaymışdılar. Bəyanatda Ermənistanın Azərbaycana qarşı hücumu pislənilirdi.

İstər müharibənin başladığı gündə və ya sonralar da Türkiyə mətbuatı Azərbaycanın mövqeyinə saygılı münasibəti ilə seçilmiş, bunu tarixi torpaqların işğaldan azad edilməsi yolunda mübarizə adlandırmışdır: "Sentyabrın 27-də səhər saatlarında Ermənistan işğal etdiyi ərazilərdən Azərbaycanın mülki yaşayış məntəqələrini atəşə tutub və yeni hərbi cinayətlərə əl atıb. Azərbaycan Ordusu Ermənistanın bu qanunsuz və işğalçı münasibətinə qarşı hücuma keçib və keçirilən əməliyyat nəticəsində işğal olunmuş ərazilərin azad edilməsinə başlanılıb. Bu kontekstdə Azərbaycan Ordusunun irəliləyişi, təxminən, bir aydır davam edir".

Türkiyə mətbuatında diqqətçəkən daha önəmli bir məsələ isə müharibə dövründə, cəbhədə ağır savaşların getdiyi dönəmdə işğalçı siyasətin qurbanı olan Ermənistan hakimiyyətinin, o cümlədən baş nazir Paşinyanın təşviş dolu halının mənzərəsi idi. "Hürriyət" qəzeti onun Avropaya müraciətini və yazıqlığını ciddi bir ironiya ilə belə təqdim edirdi: "Azərbaycan bizi çox pis döyür, Avrupa... Qurtar bizi, Avrupa... Bizi qurtarmasanız türklər, az sonra sizin qapınızda dayanacaq, Avrupa...".

"Hürriyət" başqa bir xəbərində bildirirdi ki, Dağlıq Qarabağda humanitar məqsədlərlə elan edilən atəşkəsə baxmayaraq Gəncəni raketlə vuran Ermənistan ordusu cəbhə xəttində ağır itkilər verməkdə davam edir. Ermənistanın cəbhədəki məğlubiyyəti baş nazir Nikol Paşinyan tərəfindən qəbul edilib. Paşinyan Ermənistan qüvvələrinin ağır itkilər verdiyini, həmçinin həm şimal, həm də cənub cəbhələrindən geri çəkilməyə məcbur olduqlarını etiraf edib".

***Namiq ƏHMƏDOV,***
***"Xalq qəzeti"***